**1 noyabr Milli Məclisə seçkilər günüdür**

# Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı seminar-müşavirə keçirdi

Respublikamız növbəti parlament seçkiləri ərəfəsindədir. Bu il dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti başa çatır. Milli Məclisin hər çağırışının seçkiləri beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab İlham Əliyevin avqustun 28-də imzaladığı sərəncamla Milli Məclisə seçkilər noyabrın 1-nə təyin olunub. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı, Milli Məclisə deputat seçilə bilər.



Respublika mərkəzi seçki komissiyasının 29 avqust 2015-ci il tarixli qərarı ilə Milli Məclisə seçkilərlə bağlı Təqvim Planı təsdiq edilib. Təqvim Planında seçkilərin hazırlanıb keçirilməsi üzrə hərəkət və tədbirlər öz əksini tapıb. İndiyədək seçki kampaniyasının hər bir mərhələsi ardıcıl və vaxtında yerinə yetirilib. Sentyabrın 12-dən oktyabrın 2-si saat 18.00-dək namizədlərin qeydə alınması üçün zəruri olan seçki sənədləri seçki komissiyalarına təqdim olunub.

Oktyabrın 9-dan isə seçkilərin təbliğat təşviqat kampaniyası başlanıb. Seçki qanunvericiliyinə əsasən seçkiqabağı təbliğat və təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Seçkiqabağı təbliğat və təşviqatın başlanması münasibətilə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı seçkiqabağı təbliğatda iştirak edəcək fəalların seminarını keçirmişdir.

Seminarı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri, Yeni Azərbaycan Partiyasının Milli Məclisə seçkilər üzrə səlahiyyətli nümayəndəsi Abil Ağasəfov açmışdır. O, bildirmişdir ki, Yeni Azərbaycan Partiyası bu seçkilərə də daha yüksək qələbə əzmi ilə gedir. Azərbaycanda bütün sahələrdə əldə olunmuş misilsiz inkişaf iqtidar partiyası Yeni Azərbaycan Partiyasının seçkilərdə möhtəşəm qələbə qazanması üçün əsas yaradır.



Rayon təşkilatının sədri qeyd etdi ki, təbliğat və təşviqat kampaniyasına seçicilərlə iş aparacaq fəallar, Yeni Azərbaycan Partiyasının dəstəklədiyi namizədin vəkilləri, səlahiyyətli nümayəndələr, hər bir Yeni Azərbaycan Partiyasının üzvü Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri möhtərəm cənab İlham Əliyevin rəhbərliyilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş inkişafı seçiciərin nəzərinə çatdırmalıdır.

Qeyd olundu ki, Azərbaycanın uğurlu iqtisadi siyasəti, ölkə iqtisadiyyatına kənardan mənfi təsirlərin minimuma endirilməsi istiqamətində atılmış addımlar nüfuzlu maliyyə iqtisadi təşkilatlar və aparıcı reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın milli inkişaf modeli elə uzaqgörənliklə düşünülmüşdür ki, dövlətin sosialyönümlü siyasəti azad bazar iqtisadiyyatının tələbləri ilə ziddiyət doğurmur. Məhz bu səbəblərə görə Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının 2015-ci il üzrə beynəlxalq "Cənub-Cənub" mükafatı ilə təltif edilmişdir. Bir müddət əvvəl Asiya qitəsinin inkişaf etmiş ölkələrində həyata keçirilən uğurlu islahatları əks etdirən, geniş oxucu kütləsinə malik "BizNewsAsia" jurnalı Azərbaycan Prezidenti möhtərəm cənab İlham Əliyevi "İlin adamı" elan etmişdir. Prezident İlham Əliyev Türkiyənin nüfuzlu "EkoVitrin" jurnalı tərəfindən türk dövlətlərində, Orta Asiyada və Cənubi Qafqazda "10 ilin dövlət adamı" seçilmişdir.

Bu günlərdə Azərbaycan respublikasının 2016-cı il üçün dövlət büdcəsi Milli Məclisdə müzakirə olunmuşdur. Dünya birjalarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi sözsüz ki, hər bir neft ixrac edən ölkə kimi Azərbaycanın da büdcəsinə ciddi zərər vurmuşdur. Buna baxmayaraq 2016-cı ilin dövlət büdcəsində sosialyönümlü tədbirlər, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı zəruri xərclər yenə prioritet olaraq qalır.

O da qeyd edilməlidir ki, 2003—2015-ci illər ərzində Dövlət Sosial Müdafiə Fonduna daxil olan sosial sığortanın məbləği 9 dəfədən çox artmış, dövlət dəstəyi hesabına pensiya xərclərinin ölkənin ümumi daxili məhsuluna olan nisbəti əhəmiyyətli şəkildə yüksəlmiş, 2003-cü ildə 3,9 faiz təşkil etdiyi halda, 2015-ci ildə 5,1 faizə çatmışdır. Pensiyaların orta və aylıq məbləği hazırda pensiyaçılar üçün yoxsulluq həddini 1,7 dəfə üstələyir. 2003-2015-ci illərdə Əmək pensiyalarının orta aylıq məbləği 9,5 dəfə artmışdır.

Azərbaycan dünyada gedən qlobal böhran şəraitində bir çox ölkələr üçün tamamilə əlçatmaz görünən iqtisadi inkişaf sürətinə nail olmuşdur. Ölkə dünya İqtisadi Forumunun hesabatında rəqabətlilik reytinqində 41-ci yeri tutmuşdur. Bu Müstəqil Dövlətlər Birliyi coğrafiyasında ən yüksək göstəricidir. Dünya Bankının hesabatına əsasən son 10 il ərzində Azərbaycan yoxsulluğun azalması və əhalinin ümumi rifahının yüksəlməsi istiqamətində inanılmaz irəliləyişə nail olmuşdur. Orta təbəqənin xüsusi çəkisi bir neçə dəfə artmış və yoxsulluq minimuma endirilmişdir. Azərbaycan qlobal böhrana ən az məruz qalan ölkələrdən olmuş, ölkədə makroiqtisadi sabitlik qorunmuşdur.

Azərbaycanda demokratiyanın inkişafı sahəsində də nailiyyətlər qazanılmışdır. Müstəqillik dövründə Azərbaycanda ümumrespublika səviyyəli 15-ə qədər demokratik seçki keçirilmişdir. Sözsüz ki, qarşıdan gələn Milli Məclisə seçkilər də istisna olmayacaq. Hökumət orqanları, Mərkəzi Seçki Komissiyası bütövlükdə Azərbaycanda seçkilərin ədalətli, şəffaf, demokratik keçirilməsi üçün bütün tədbirləri görür. Təbliğat-təşviqatla məşğul olacaq Yeni Azərbaycan Partiyası fəallarının əsas vəzifəsi odur ki, seçicilərlə işi düzgün qursunlar, hər bir seçicinin seçki öncəsi ovqatını öyrənsinlər və buna uyğun iş aparsınlar.

Seminar müşavirədə 116 saylı Qəbələ seçki dairəsindən Milli Məclisin deputatlığına Yeni Azərbaycan Partiyasının dəstəklədiyi namizəd Fəttah Heydərovun vəkilləri Qüdrət Səmədov, Sabir Bayramov, Aslan Cəlilov və Frans Vartanov çıxış edərək namizədin həyat və fəaliyəti barədə təbliğatçılara ətraflı məlumat verdilər. Bildirilib ki, Fəttah Heydərov hələ gənc yaşlarından əmək fəaliyyətinə başlayıb, sıravi müəllimlikdən rayon partiya komitəsinin birinci katibi, Naxçıvan Muxtar Respublikasının Əhaliyə Məişət Xidməti və Mədəniyyət naziri vəzifəsinədək böyük fəaliyyət yolu keçib. 4 dəfə Həcc, dəfələrlə müqəddəs məkanda ümrə ziyarətində olub.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisə 1995-ci ildə keçirilən ilk seçkilərdən başlayaraq 4 dəfə 116 saylı Qəbələ seçki dairəsindən Milli Məclisə deputat seçilib.

O vaxtdan Fəttah Heydərov öz sadə və səmimi münasibəti ilə rayon ağsaqqallarının, ziyalılarının, gənclərin, bütün əhalinin dostuna çevrilib. O rayon əhalisinin işlə təminatı və bu əsasda onların maddi rifah halının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, sosial-iqtisadi infrastrukturun müasirləşdirilməsi istiqamətində fəal, ardıcıl və səmərəli iş aparmışdır. Fəttah Heydərov istər Milli Məclisdə, istərsə də rayonda minlərlə vətəndaşı qəbul etmiş, onlara şəxsi və sosial problemlərinin həllində kömək göstərmişdir. O, rayonun təhsil, səhiyyə, mədəniyyət, rabitə, sosial təminat, abadlıq, sel sularından mühafizə kimi problemlərinin həllində yaxından iştirak etmişdir.

Fəttah Heydərov Milli Məclisin regional məsələlər komitəsinin sədr müavini kimi çox böyük iş aparır. ATƏT-in parlamentlərarası Assambleyasının üzvü, Azərbaycan—Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan—Almaniya Federativ Respublikası, Azərbaycan—Avstriya və Azərbaycan—Koreya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi Fəttah Heydərov Beynəlxalq aləmdə vətənimizi layiqincə təmsil edir.

Fəttah Heydərov respublika Ağsaqqallar Şurasının sədri kimi respublikanın ictimai həyatında da fəal iştirak edir.

**Qüdrət SƏMƏDOV.**
**Fotolar İ. Vəlizadənindir.**